# Qismətəli, yeməkxana iti, saralmış yarpaq

*(Əvvəli ötən saylarımızda)*

*(Hekayə)*

- Hə. Onu deyibsən. Arvadla toyunuzun iyirmi ilinin səhəri günü bura gəlmişdin. Hardasa içmişdin, gəlib burda da üstünü düzəltdin. Yaman sərxoş idin. Söyüşün biri bir qəpiyə idi. Day yer üzündə adam qalmadı ki, söyməyəsən. Hətta Hitleri də söydün ki, niyə o vaxt gəlib buranı almadı, yoxsa indi adam kimi yaşayardıq...

- Nə, demişəm? Yadımda deyil. Əşi başıma elə oyunlar açırlar ki, bəzən səhər nə yediyimi, nə dediyimi də axşam yaddan çıxarıram. Dərd birdi-ikidi... Sənə nə var ey. Sümükdən zaddan qamarlayıb, qarnını doyurursan. Bu məmləkətdə bizim işimiz isə Allaha qalıb...

- Hanı o sümük? - deyə İt əsəbiləşdi, - Sümük var ki. Heç yeməkxanaya gələn var ki, mənə də sümük versinlər? Gələnlər də sənin kimi yüngülvari boğazlarını yaşlayıb gedirlər. Ya da yedikləri ətin sümüyünü də yığıb aparırlar özləri ilə. Mən onları qınamıram. Yəqin evlərində mənim kimi itləri, pişikləri var. Bax, bu gün səhərdən acam. Heç dilimə çörək də dəyməyib. O bufetçi zalım oğlu da axır vaxtlar mənimlə çox düşünüşüb. Nə var, nə var iki gün bundan qabaq bir gözü kor Pişiyinə hürmüşəm. Məni cinnətdi. Mən də ona hürdüm. Qovdum ki, "dərsini verim", bufetçi gördü. Zalım oğlu yerdən bir kirtək götürüb atdı mənə. Düz bel sümüyümə dəydi. İt oğlu elə bil atıcılıq üzrə dünya çempionudu. İki gündü belim elə ağrıyır ki... Elə bil bədənim iki yerə bölünəcək. Bu gün bircə ümidim var, bəlkə bir az sümük qamarlaya bildim. Çünki bir az bundan qabaq kömür kimi qap-qara bir zənci qonaq, ağappaq, dünya gözəli arvadı və iti ilə girib kabinələrin birinə çörək yeyirlər. Özlərinə də, itlərinə də kabab sifariş verib. Özü də növbənöv. Bax, onda deyirlər ki, it də olsan, gərək bəxtin ola. Özü də it nə it. Bapbalaca. Şpankə... Elə zəncinin özü kim zil qara. Hürəndə, səsi də çıxmır. Zənci kişinin yanındakı göyçək arvad, onu böyürləri deşik balaca bir çemodanın içinə qoyub gətirmişdi. Çemodan da elə bil qurulu ev idi. Özü də o şpankə heç itə də oxşamır. Elə bil lap meymundu. Bəxtə bax də. Boy, buxun, gözəllik məndə, bəxt onda. Tfu, sənin hərçibetərinə belə zəmanə...

Hə. Bayaqdan gözdə-qulaqdayam ki, onlar yeyib gedəndən sonra bəlkə o sümüklərdən mənə də çatdı. Əgər o biri itlər imkan versə və bufetçi də mənə yenə kirtək atmasa. Amma öldü var, döndü yoxdu. Gərək heç olmasa bir sümük də olsa, qamarlayam. Bayaqdan orda keşik çəkirəm...

- Sən heç olmasa, ümidlə yaşayırsan. Bəs mən gedib evdə arvada nə deyəcəm? Bu gün nə uyduracam?..

- Hə. Allah göstərməsin sənin arvadının xasiyyətini... Yəqin ki, elə bütün günü deyinir. Ona görə də başında, saqqalında, bığında, qaşında bir dənə də qara tük yoxdu. Siz insanlarda belə bir məsəl var ki, "arvadı deyingən olan kişinin saqqalı tez ağarır". Sən yazığın nəinki saqqalı, bığı da, lap qaşı da, saçı da sinəsi də tamam ağarıb. Bəlkə bədəninin heç yerində bir dənə lap dərmana da olsa qara tük yoxdu.

*(Ardı var)*

**Ağalar İDRİSOĞLU**

**Azad Azərbaycan.- 2023- cü il.- 25 may.- S. 8.**